***Natiq Əbülfət oğlu Alışov***
*AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun*
*Antik dövr arxeologiyası şöbəsinin böyük elmi işçisi*
E-mail: alishov-natiq@mail.ru
alishov@rambler.ru

# BALAKƏN, OĞUZ, İSMAYILLI VƏ ZAQATALA RAYONUN ƏRAZİLƏRİNDƏKİ XİRİSTİAN ABİDƏLƏRİ HAQQINDA

**Açar sözlər**: Oğuz, İsmayıllı, Balakən, Zaqatala, Xristianlıq, Qafqaz Albaniyası, Məbəd, Kilsə, Din.

**Key words**: Oguz, Ismayilli, Balaken, Christianity, Caucasian Albania, Temple, Church, Religion.

**Ключевые слова:** Огуз, Исмаиллы, Балакен, Христианство, Кавказская Албания, Храм, Церковь, Религия.

Azərbaycan ərazisi ilk xristianlığın yayıldığı ərazilərdən olduğuna görə xristian abidələri ilə zəngindir. Bu zənginlik əsasən dağətəyi və dağlıq ərazi üçün xarakterikdir. Aran bölgəsində xristian abidələrinin tikinti texnologiyasının dağlıq və dağətəyi bölgələrdən fərqli olaraq daş və kirəc məhlulu ilə deyil, çiy kərpicdən inşası tez bir zamanda bu abidələrin dağılmasına şərait yaratmışdır.

Bu məqalədə Azərbaycanın şimal bölgəsinin bir necə rayonu ərazisində yerləşən xristian abidələrində aparılmış, əsasən memarlıq və arxeoloji çöl-tədqiqat işlərinin nəticələri öz əksini tapmışdır.

Aparılmış tədqiqatlar nəticəsində Balakən rayonu ərazisində Qafqaz Albaniyasına məxsus bir neçə xristian abidələri tədqiq edilmişdi. Balakən rayonunun Poçtbinə kəndi ərazisində yerləşən kilsənin uzunluğu 7,40 m, eni 5,30 m-dir. Kilsənin altarının eni 3,20 m, uzunluğu 2,60 m-dir. Kilsənin altar hissəsində, şimal və cənub istiqamətindən 45 sm qərbə pəncərə yerləri vardır. Şimal divarında yerləşən pəncərə yerinin eni 50 sm, hündürlüyü 70 sm-dir. Altar hissənin mərkəzində yerləşən pəncərə yerinin hündürlüyü 1 m, eni 70 sm-dir. Cənub divarında yerləşən pəncərə yerinin eni 70 sm, hündürlüyü 80 sm-dir. Kilsənin ümumi hündürlüyü 4,50 m-dir. Kilsə çaydaşı və puçdaşdan istifadə olunmaqla inşa edilmişdir. Divarlarının qalınlığı 60 sm olmaqla, qərb divarında yerləşən girişinin eni 1,60 m, hündürlüyü 1 m-dir. İnşa edilərkən kilsənin divarının həm daxili, həm də xarici puçdaşla üzlənsə də, hal-hazırda onların izləri qalmışdır. Abidədə arxeoloji qazıntı aparılmadığı üçün onun divarının qalınlığı və inşa dövrü haqqında dəqiq informasiya əldə edilməmişdir. (Kilsə Poçtbinən kənd sakini Əvəzov Ziyavəddinin həyətyanı sahəsində yerləşir). (Tablo 1. Şək. 1, 2)

Balakən rayon Cicixana (Cicibinə) kəndi ərazisində tədqiqata cəlb edilən digər kilsənin uzunluğu 10,40 m, eni 5,90 m-dir. Kilsənin altarının eni 3,60 m, uzunluğu 2,25 m-dir. Abidənin divarının qalınlığı 1 m-dir. Kilsənin cənub tərəfində yerləşən qapı yerinin eni 2,20 m-dir. Abidənin cənubda yerləşən narteksinin cənub və şərqdən divarının uzunluğu 3,60 m, şimaldan uzunluğu 5,25 m, qərbdən 4,80 m-dir. Narteksin daxildən uzunluğu 3,80 m, eni 2-2,45 metr arasında dəyişir. Kilsənin giriş qapısı narteksidə olmaqla hər ikisinin eni 2,10 m-dir. Narteksdən şərqdə bünövrəsinə qədər dağılmış, təxmini eni 2,85 m, uzunluğu isə 4,60 m olan köməkçi otaq yeri izlənir. Kilsə yarım dağılmış vəziyyətdədir. Şərq divarında eni 45 sm, hündürlüyü 1,10 m-lik pəncərə yeri vardı. Tağvari örtüyə malik altarın üstündə səsin kilsə daxilinə geniş yayılması üçün akustik küplər yerləşdirilmişdir. Kilsənin qərb divarı bünövrəsinə qədər dağılmış və bu səbəbdən qərbdə yerləşməsi ehtimal olunan giriş qapısı qeydə alınmamışdır. Kilsə Zaqatala rayonu Katex bölgəsində meşəlik ərazidə yerləşsə də, Balakən rayon abidələri siyahısına daxildir. (Abidəyə Cicixana kənd sakini Musa Musayevin həyətyanı sahəsindən keçməklə getmək olar.) (Tablo 1. Şək. 3,4)

Balakən rayonunda tədqiq edilən digər kilsə Gərəkli kəndi meşə sahəsində qoruq ərazisində yerləşən Cınıxlı kilsəsidir. Kilsənin uzunluğu 9,20 m, eni 6,60 m-dir. Cınıxlı kilsəsinin altarının eni 4,35 m, uzunluğu 2 m, divarlarının qalınlığı 90 sm-dir. Qərb divarında yerləşən girişinin eni 1,20 m, daxildən uzunluğu 5,40 m, eni 4,80 m-dir. Mərkəz hissədə şimal və cənub divar boyu qarşı-qarşıya şimalda eni 58x28 sm, cənubda 55x30 sm yerləşən pilyastrlar vardır. Cənub divarında qapı olması ehtimal olunan yerin eni 1,35 m-dir. Kilsənin altar hissəsində, şimal divarında altar xəttindən 1,45 m, cənub divarında 1,20 m, məsafədə eni 20-30 sm arasında dəyişən, hündürlüyü 40 sm olan taxça yerləri vardır. Bundan başqa kilsənin tağvari örtüyə malik altar hissəsində dini moizənin daxilə yayılması üçün akustik küplər yerləşdirilmişdir. Cənub divarında altardan 90 sm məsafədə eni 50 sm, hündürlüyü 1,40 m, olan pəncərə yeri hesab olunan dağılmış hissə vardır. (Gərəkli kəndində Cınıxlılar ailəsinin (Elçin Cınıxov) həyətyanı sahəsindən keçməklə getmək olar.) (Tablo 1. Şək. 5,6)

Darvaz kilsəsi Balakən rayonu Qazma kəndinin Gürcüstan Respublikası ilə sərhəd bölgəsində yerləşir. Şimal və cənub divarlarının salamat qalan hissəsinin uzunluğu 9,20 m-dir. Şərq divarının yanından çıxan 45x13 sm-lik pilyastrlarla birlikdə eni 7 m-dir. Altarının eni 4,82 m, uzunluğu 2,50 m-dir. Altar xəttindən şərqə, şimal və cənub divarında 28x28 sm olan taxçalar vardır. Altarın mərkəzində eni 65 sm, hündürlüyü 1,10 sm, mazğal formalı pəncərə yeri vardır. Kilsə bişmiş kərpiclərdən kirəc məhlulundan istifadə edilməklə inşa edilmişdir. Abidənin qərbdə olan dağıdılmış giriş hissəsində narteksi və ya zəng qülləsini xatırladan tikili qalıqları qeydə alınmışdır. (Tablo 2. Şək. 1, 2)

Balakən rayonunun Qabaqçöl ərazisinin, Şambul kəndində, şəxsi həyətyanı sahədə yerləşən İsaqlıgirmə (Qırmızı kilsə) kilsəsinin qərb hissəsi tamamilə dağıdılmışdır. Belə ki, kilsənin dağılmış hissəsindən dəmir hasar çəkilərək kilsə qonşular tərəfindən iki hissəyə bölünmüşdür. Kilsənin salamat qalan şərq hissəsində şimal və cənub divarlarının uzunluğu 6,40 m, şərq divarının uzunluğu 6 m-dir. Altarın eni 3,90 m, uzunluğu 2,50 m-dir. Şimal, cənub və şərq divarlarının bayır üzündə olan pilyastrların eni 25 sm, uzunluğu 1 m-dir. Kilsənin salamat divarların uzunluğu 3,50 m, hər iki divar arasındakı məsafə 4,40 m-dir. Divarın qalınlığı 80 sm-dir. Abidə 22x23 sm ölçüdə olan bişmiş kərpicdən kirəc məhlulundan istifadə olunmaqla inşa edilmiş və hal-hazırda tam olaraq dağılmaq təhlükəsindədir. (Tablo 2. Şək. 3,4)

Tədqiq edilən digər kilsə Balakən rayonu, Xalatala kənd qoruğunun Çimən meşə adlanan ərazisində yerləşir. Kilsənin uzunluğu, şimalında yerləşən təsərrüfat otağı ilə birlikdə 7,65 m, eni 8,40 m-dir. Yardımçı otağın eni 3,35 m, uzunluğu 7,65 m, daxildən uzunluğu 6,20 m, eni 2,60 m, divarının qalınlığı 70 sm-dir. Kilsə daxilində olan giriş qapısının eni 1 m, daxili işıqlandırma üçün qoyulmuş pəncərə yerinin daxildən eni 35 sm-dir. Kilsənin özünün ümumi eni 5,10 m, uzunluğu 7,65 m, altarının eni 3,04 m, uzunluğu 2 m-dir. Altar xəttindən şimal divarında 1,25 m, cənub divarından 1,20 m, şərq istiqamətində eni 45 sm, hündürlüyü 90 sm olan taxça yerləri vardır. Altarın mərkəzində daxildən eni 50 sm, hündürlüyü 90 sm-lik mazğal formalı pəncərə qoyulmuşdur. Belə bir pəncərə yeri qərb girişinin üstündə də mövcuddur. Kilsənin daxildən uzunluğu 4,25 m, eni 3,60 m, divarının qalınlığı 75 sm-dir. Kilsənin cənub tərəfində, sonradan hörülərək bağlanılmış cənub qapısının eni 1 m, hündürlüyü 1,80 m olmuşdur. Qərb qapısının eni 95 sm-dir. Baş vermiş dağıntı səbəbindən onun hündürlüyünü vermək mümkün olmamışdır. Abidə əsasən qaya daşlarından istifadə olunmaqla, kirəc məhlulu ilə tikilmişdir. (Tablo 2. Şək. 5,6)

Balakən rayonunda tədqiq edilən digər dini abidə, Hənfə kəndi ərazisində olan Murğuztala (Roçəhməd) kilsəsidir. Kilsə trapesvari formada inşa edilib. Kilsənin şimal divarının uzunluğu 9,72 m, cənub divarı 9,50 m, şərq divarı 5,90 m, qərb divarı 6 m-dir. Altarın eni 3,90 m, uzunluğu 2,75 m, divar qalınlığı şimal divarında 80 sm, cənub divarında isə 90 sm təşkil edir. Altar xəttindən şimal və cənub divarında şərq istiqamətində 1 m məsafədə 32x30 sm taxça yerləri vardır. Daxil-

dən eni 4,38 m, uzunluğu 5,55 m, şimal və cənub divarlarının mərkəz hissəsində ölçüləri 65x25 sm olan iki pilyastr vardır, qərbdə yerləşən girişin eni 1 m-dir. Abidənin altar xəttinin cənub divarından qərb istiqamətinə 1,33 sm məsafədə eni 55x60 sm, şimal divarında 1,43 sm, məsafədə eni 55x52 sm olan pəncərə yeri vardır. Belə bir pəncərə yeri şərq divarında da yerləşir. Abidənin tikinti materialı əsasən çaydaşı, qayadaşı və bişmiş kərpiclərdən ibarətdir. (Tablo 3. Şək. 1,2)

Balakən rayonu, Gərəkli kəndi ərazisində Dağılmayan kilsə tədqiq edilmişdi. Kilsə şərqdən nalvari formada tikilib, şimal və cənub divarlarının uzunluğu 5,30 m-dir. Qərb divarının uzunluğu 5,25 m təşkil edir. Kilsənin divarının qalınlığı 75 sm olmaqla, girişinin eni 1,50 m-dir. Altarının eni 3,60 m, uzunluğu 2,50 m-dir. Kilsənin daxildən eni qərb divarında 3,60 m, altar hissədə 3,80 m, şimal və cənub divarının daxili uzunluğu 3,60 m təşkil edir. Altar xəttindən şərqə, şimal divarından 70 sm məsafədə eni 65 sm, hündürlüyü 83 sm, cənub divarında 65 sm, şərqə eni 75 sm, hündürlüyü 1,10 m olan taxça yerləri qeydə alınmışdır. Şərq divarında eni 70 sm, hündürlüyü 1,20 m olan mazğal formalı pəncərə yeri var. Daxildən qərb divarında 1,45 m, şərq istiqamətində şimal və cənub divarında eni 65 sm, hündürlüyü 1,60 m pəncərə yerləri vardır. (Tablo 3. Şək. 3,4)

Zaqatala rayonu Beretbinə qoruğu ərazisində yerləşən kilsənin uzunluğu 8,80 m, eni 6,35 m-dir. Kilsənin altarının eni 4,30 m, uzunluğu 3 m-dir. İbadət otağının daxildən eni 4,50 m, uzunluğu 3,70 m-dir. Kilsənin divarının qalınlığı 90 sm, qərbdə yerləşən qapısının eni 1 m-dir. Qərb divarından şərqə doğru 25 sm məsafədə şimal və cənub divarında ölçüləri 23x23 sm olan taxça yerləri vardır. Kilsənin şərq divarında eni 55 sm olan pəncərə yeri vardır. (Tablo 3. Şək. 5,6)

Balakən rayonu Hənifə kəndində, məscidlə üzbəüz Vasovlar qəbiristanlığında yerüstü əlaməti bilinən kilsə yeri qeydə alınmışdır. Balakən rayonu Gərəkli kəndində meşə ərazisində yerüstü əlamətə malik, lakin baş vermiş sürüşmə nəticəsində dağılan və yerli sakinlərin məhz bu əlamətinə görə Dağılan kilsə adlandırdıqları xristian abidəsi qeydə alınmışdır.

Balakən rayonunun Katex kəndində yerli əhalinin Kilsəburun adlandırdıqları kilsə yeri mövcuddur. Yerli sakinlərin verdiyi məlumata əsasən abidə dinamitlə partladılmışdır.

Balakən rayonunun Kortala kəndinin Qaracılı oba (çölü) adlanan keçmiş ferma ərazisində bünövrəsinə qədər dağıdılmış kilsə yeri qeydə alınmışdır.

Balakən rayonunun Şambul kəndində yerli sakinlərin verdiyi məlumata görə Ağkilsə və Kilsəbuqov məbədləri mövcud olmuşdur. Lakin abidələrin yer üstündən heç bir əlaməti qalmamışdır.

Zaqatala rayonunun Yuxarı Çardaqlar kəndində Pəri qala (atəşpərəstlik) məbədindən 1 km cənubda, dağın kəndə tərəf olan çıxıntısında, yerli sakinlərin "Ay məbədi" adlandırdıqları alban xristian abidəsi qeydə alınmışdır. Abidənin yalnız 70-80 sm hündürlükdə qərb divarı salamat qalmışdır.

Zaqatala rayonunun Muxax kəndində, Təpəhənd çölü deyilən ərazidə, təxminən hündürlüyü 20 metr olan yüksəklikdə, kənd sakini Enney Seyfunun həyətyanı sahəsində kirəc məhlulu ilə hörülmüş və kilsə olduğu güman edilən yarımdağılmış abidə qeydə alınmışdır.

Oğuz rayonu ərazisində Qafqaz Albaniyasına məxsus xeyli sayda xristian abidələri mövcuddur və bu abidələrin bir necəsi tərəfimizdən tədqiqata cəlb edilmişdir.

Tədqiq olunan dövr üzrə bir nefli Calut məbədi Oğuz rayonunun şimal-şərqində yüksəklikdə yerləşir. Memarlıq nöqteyi-nəzərdən tədqiqatı G.H.Məmmədova tərəfindən aparılan Calut məbədinin ibadət zalının ölçüləri 6x4,40 m, absidasının ölçüləri 3,65x1,75 metrdir. Məbədin 2-2,6 m hündürlükdə olan qərb və şərq hissəsi salamat qalmışdır. Divarın hörgüsündə müxtəlif təbii daşlardan, bişmiş kərpicdən, beton qarışıq materiallardan istifadəsi, burada müxtəlif dövrlərdə tikinti bərpa işlərinin aparılmasını göstərir. Yaxşı vəziyyətdə olmayan epiqrafik yazıda sonuncu bərpa işlərinin 1211-ci ildə aparıldığı qeyd edilir. Müəllif tikinti texnologiyasına əsasən məbədi V əsrə aid edir [1, s. 39-40]. Fikrimizcə abidədə arxeoloji qazıntılar aparılma-

dan bu haqda dəqiq fikir söyləmək çətindir. Tədqiqatçının bu fikrə gəlməsinə səbəb kimi abidə haqqında bölgədə əfsanənin olmasıdır [1, s. 39-40]. Əfsanədə qeyd edilir ki, abidə I əsrdə müqəddəs Yeliseyin xristianlığı təbliğ etməsi ilə bina edilmişdi. Lakin Moisey Kalankatuklunun "Alban tarixi" əsərində Müqqəddəs Yeliseyin kilsə bina etməsi tamamilə başqa bir ərazidə (Gis, Kiş) qeyd edilmişdir [2, K, I. F. XXV].

Sonrakı dövrlərdə Calut məbədinin yerləşdiyi ərazinin yaxınlığında yeni bir abidə inşa edilmişdir. Bu udin alban xristian abidəsi üç nefli kompleks olub, altarının sağ və solunda iki mərtəbəli cübbəxanaya malikdir. (Tablo 4. Şək. 1,2)

Oğuz rayonu Saleh Qazıyev küçəsində, orta əsrlərdə tikilmiş xristian abidəsi hal-hazırda Tarix-Diyarşünaslıq muzeyi kimi fəaliyyət göstərir. Üçnefli və günbəzli olan bu abidə tuf daşı və kirəc məhlulu ilə tikilmişdir. Qapısı qərbdən olan bu abidə 15 m uzunluğa, 9 m enə malikdir. Keşiş cübbəxanalarından dairəvi formalı pilləkənlərlə ikinci mərtəbəyə və günbəzə yol vardır. Təxmini hündürlüyü 10 metr olan abidə dörd böyük, iki kiçik pəncərələrlə işıqlandırılır. Məbədin üzərində altı sütunlu zəng qülləsi yerləşir. (Tablo 4. Şək. 3,4)

Oğuz rayonunun H.Naxçıvanlı küçəsində köhnə xəstəxana binasının ərazisində fəaliyyətdə olmayan udin alban kilsəsinə baxış keçirilmişdir. Üç nefli olan bu abidə puçdaş, çaydaşı və bişmiş kərpicdən hörülmüş, qərb-şərq istiqamətindədir. Şimal və cənubdan beş iri və dörd yarımoval pəncərə ilə işıqlandırılır. Altarın hər iki istiqamətində yerləşən keşiş cübbəxanaları ikimərtəbəlidir. Daxildən tavanı neflər arasında tağvaridir. Kilsənin qərb və cənub istiqamətində olmaqla giriş qapısı vardır. Abidənin uzunluğu 23 (24) m, eni 13(14) m, hündürlüyü 10 m-ə qədərdir. Hal-hazırda rayon mədəniyyət və turizm idarəsi tərəfindən kilsənin tavanı və daxili bərpa olunur. (Tablo 4. Şək. 5.6)

Oğuz rayonu Qarabulaq kəndi ərazisində aparılmış çöl-tədqiqat işləri zamanı tərəfimizdən iki alban xristian abidəsi qeydə alınmışdır. Bu abidələrdən biri kəndin mərkəzi hissəsində yerləşib, uzunluğu 16,50 m, eni 8 m təşkil edir. Daxilində yerləşmiş iki cüt sütun və yan pilyastrlar abidəni üç nefə bölmüşdür. Divarının qalınlığı 90 sm olan abidənin girişi cənub divarındandır. Abidənin cənub divarında iki, şərq və qərb divarında bir pəncərəsi vardır. Altarın eninin uzunluğa olan nisbəti 3x3 m təşkil etməklə, şimal və cənub divarlarında uzunluğu 2,95 m, eni 1,65 m olan cübbəxanalar yerləşir. Abidə daxilində orta əsrlər üçün xarakterik olan saxsı nümunələri aşkar edilmişdir. (Tablo 5. Şək. 1,2)

Qarabulaq kəndi ərazisində tədqiqata cəlb edilmiş digər məbəd kəndin cənub tərəfində, Türyançayın sağ sahilində, meşəlik ərazidə yerləşir. Abidə üç nefli olub, qərb girişi narteksə açılır. Abidənin altarının cənub və şimalında yerləşən cübbəxanalarından, altarın alt hissəsində yerləşən sərdabəyə giriş yeri vardır. Narteksdən cənubda üst örtüyü dağılmış, ilk baxışdan yaşayış yerini (monastır keliyalarını) xatırladan tikililər vardır. Tərəfimizdən kilsə ətrafında xristian dövrü üçün xarakterik, çoxsaylı qəbir abidələrinin baş və sinə daşları qeydə alınmışdır. Abidədə arxeoloji qazıntı işləri aparılmadan dövr və memarlıq quruluşu baxımından konkret bir fikir söyləmək çətindir. Lakin güman etmək olar ki, bu abidə məhz mənbələrdə xatırlanan Qəbələ yepiskopluğunun mərkəzi iqamətgahı olmuşdur. (Tablo 5. Şək. 3,4,5,6)

II Qarabulaq kilsəsinin narteksi ilə birlikdə ümumi uzunluğu 18,50 m, eni 9,20 m-dir. Kilsə iki sütun vasitəsi ilə üç nefə bölünüb. Cənub və şimal divarının eni 90 sm, qərb divarının eni girişdən cənuba 1,10 m, şimala 90 sm təşkil edir. Kilsə daxilində sağda və solda cübbəxanalar vardır. Bu cübbəxanalar daxilində altarın alt hissəsində yerləşən sərdabəyə 70 sm enində giriş inşa edilmişdir. Altarın eni 3,16 m uzunluğu 3 m-dir. Cənub divarında eni 1 metr, qərb divarında 1,20 m enində qapı yeri vardır. Kilsənin daxildən eni 7 m, uzunluğu 6,14 m-dir. Kilsənin narteksi daxilində səkkiz zikir hücrəsi inşa edilmişdir. (Tablo 6. Şək. 1,2,3)

İsmayıllı rayonu, Qalagah kəndi ərazisində yarımdağılmış vəziyyətdə olan bazilika formalı kilsənin divarının qalınlığı 1 m, uzunluğu 19 m, eni 14,50 m-dir. Kilsə üç nefli ba-

zilika olub, daxildən 4 xaçvari dayaqlar günbəzi saxlayır. Hər xaçvari dayağın qarşı tərəfində divar boyu pilyastrlar qalxaraq sağ və solda yerləşən neflərin tağvari tavanının dayaq rolunu oynayır. Şimal divarında yerləşən pilyastrla mərkəzdəki dayaqlar arası məsafə 2,67 m, cənubda 2,45 m-dir. Kilsənin altarının eni 4,30 m uzunluğu 2,65 m-dir. Altarın sağ və solunda yerləşən cübbəxanaların girişinin eni 1 m, uzunluğu 3 m, eni 2,70 m-dir. Abidənin şimal divarı və qapı yeri salamatdır. Şimal divarında yerləşən qapı yerinə əsasən cənub və qərbdə girişlərin olması ehtimal edilir. Abidənin daxili hazırkı mövcud 10 pəncərə vasitəsi ilə işıqlandırılır. Lakin ehtimal var ki, bu pəncərələrin sayı 13-dür. Şimalda olan qapı yerinin eni 1,73 m, pəncərə yerləri 1 m-dir. (Tablo 6. Şək. 4,5,6,7)

1964-cü ildə İsmayıllı rayonu ərazisində yerləşən Qalagah ilk orta əsr yaşayış yerindən qırmızı rəngdə saxsı möhür aşkar edilmişdir. Möhür əldə düzəldilmiş və yaxşı bişirilmişdir. Möhürün təsvir olan hissəsində diametri 6 sm olmaqla iki dairəvi xətlər arasında zəncir şəkilində düzülmüş xaçlar halqa əmələ gətirmişdir. Xaç halqa daxilində İsanın xaça çəkilmə səhnəsi verilmişdir. Bundan başqa, təsvirin yuxarı hissəsində İsanın başı üzərində qanadları bərabər olan xaç və xaçın sol qanadı istiqamətində aypara, aşağı hissəsində kobud formada ağac həkk edilmişdir. Müəllif şərq xristianlığında xaça çəkmə mərasiminin təsvirinin VIII əsrdən sonra olduğunu əsas götürərək möhürü həmin dövrə aid etmişdir [3, s. 120]. Bu fakt bir daha təsdiq edir ki, Qalagah kəndi yuxarıda bəhs olunan tarixi dövrdə xristian dininin geniş yayıldığı ərazi olmuşdur.

Tərəfimizdən tədqiqata cəlb edilmiş kilsələrdə gələcəkdə aparılacaq arxeoloji qazıntılar bu abidələrin tikilmə tarixi haqqında dəqiq məlumat verməyə imkan verəcəkdir. Bu kilsələri arxeoloji qazıntılar aparılmış digər analoji abidələrlə müqayisə edərək əksəriyyətinin V-XIII əsrdə tikildiyin demək mümkündür.

## ƏDƏBİYYAT

1. Мамедова Г.Г. Зодчество Кавказской Албании. Баку: Чашыоглу, 2004, 222 с.
2. Moisey Kalankatuklu. Albaniya tarixi. Mxitar Qoş. Alban salnaməsi. Tərcümə və şərhlər Z.M.Bünyadov, Bakı: Avrasiya Press, 2006, 293 s.
3. Геюшев Р.Б. Христианство Кавказской Албании. Баку: Элм, 1984, 191 с.

***Натиг Абульфат оглы Алышов***

## О ХРИСТИАНСКИХ ПАМЯТНИКАХ НА ТЕРРИТОРИИ БАЛАКЕНСКОГО, ОГУЗСКОГО, ЗАГАТАЛЬСКОГО И ИСМАИЛИНСКОГО РАЙОНОВ

### *РЕЗЮМЕ*

Статья посвящена полевым археологическим исследованиям христианских памятников Кавказской Албании, находящихся в Балакенском, Огузском, Загатальском и Исмаилинском районах. Хотя до сих пор проводились археологические исследования христианских памятников в указанных районах, многие памятники этого региона или оставались за пределами изучения или были изучены не полностью. Автором статьи в течение нескольких последних лет были проведены полевые археологические исследования этих памятников, их архитектурные обмеры. В Балакенском районе исследования проводились в с. Почтбине, Джиджихана, Герекли (церкви Джыныхлылар, Дагылан и Дагылмайан), Газма, Шамбул, Халатала, Хенфе, в Закатальском районе в с. Юхары Чардаглар и на территории заповедника Беретбине, в удинских христианских памятниках в центре Огузского района и в с.Джалут, Гарабулаг (две церкви), и христианских памятниках в с. Галагех Исмаилинского района. Сопоставляя указанные памятники с ранее археологически исследованными, их можно предварительно датировать V-XIII веками.

***Natiq Abulfat oglu Alishov***

# ABOUT THE CHRISTIAN MONUMENTS IN THE TERRITORIES OF BALAKEN, OGUZ, ISMAILLY AND ZAGATALA REGIONS

***SUMMARY***

This article is devoted to the field archaeological research of Christian monuments of Caucasian Albania located in Balaken, Oguz, Zagatala and Ismayilly regions. Although archaeological researches have been carried out in the territories of the mentioned regions for years, many of the monuments have remained out of the study or have not been studied comprehensively. The author of the article has made a field archaeological research of the monuments for the last few years and he has defined their architectural measurements. In Balakan region the study has been carried out in the villages of Pochtbina, Jijihana, Garakly (Jinikhlilar, Daghilan and Daghilmayan churches), Gazma, Shambul, Halatala, Hanfa. In Zagatala region the study has been carried out in the village of Yukhary Chardaglar and in the territory of the game reserve Beretbina. In Oguz region the study has been carried out in the Udi Christian monuments in the centre of the region and in the villages of Jalut and Garabulag (two churches). In Ismailly region the study has been carried out in the Christian monuments in the village of Galagah. Comparing these monuments to the previous monuments which were archaeologically investigated they can be predated to the V-XIII centuries.

## Tablo 1






**1. Poçt Binə şimal-qərbdən görünüş.** **2. Poçt Binə plan.**
**(şəkil və plan N.Alışov)**






**3. Cicixana cənubdan görünüş.** **4. Cicixana plan.**
**(şəkil və plan N.Alışov)**






**5. Gərəkli kəndi, Cınxlı.** **6. Cınxlı plan.**
**(şəkil və plan N.Alışov)**

## Tablo 2






**1. Qazma kəndi, Darvaz** **2. Darvaz plan.**

**(şəkil və plan N.Alışov)**






**3. Qabaqçöl, Şambul kiləsi.** **4. Şambul plan.**

**(şəkil və plan N.Alışov)**






**5. Xalatala, Çimən meşə** **6. Çimən meşə plan.**

**(şəkil və plan N.Alışov)**

**Tablo 3**






**1. Hənfə kəndi, Murğuztala** **2. Murğuztala plan**

**(şəkil və plan N.Alışov)**






**3. Gərəkli kəndi, Dağılmayan kilsə** **4. Dağılmayan plan.**

**(şəkil və plan N.Alışov)**






**5. Beretbinə qoruğu.** **6. Beretbinə plan.**

**(şəkil və plan N.Alışov)**

**Tablo 4**




**1.Oğuz rayonu, Calut məbədi (şəkillər N.Alışov) 2. Calut məbədi**




**3. Oğuz, Saleh Qazıyev küçəsi (şəkillər N.Alışov) 4. Oğuz, Saleh Qazıyev küçəsi.**




**5. Oğuz rayon, H.Naxçıvanlı küçəsi (şəkillər N.Alışov) 6. Cənub görünüş.**

**Tablo 5.**





**1. Oğuz Qarabulaq I** **2. Qarabulaq I plan**

**(şəkil N.Alışov və plan M.Əhmədov)**





**3. Oğuz Qarabulaq II** **4. Qarabulaq II**

**(şəkillər N.Alışov)**





**5. Qarabulaq II altar hissəsi.** **6. Qarabulaq II qərb girişi**

**(şəkillər N.Alışov)**

**Tablo 6.**





**1. Qarabulaq II şimal divar (şəkillər N.Alışov) 2. Qarabulaq II cənub divarı**




**3. Qarabulaq II (Plan N.Alışov)**





**4. İsmayıllı, Qalagah kilsəsi cənub-qərbdən**

**5. Qalagah kilsəsi cənubdan**






**6. Qalagah kilsəsi şərqdən**

**7.Qalagah kilsəsi plan**

**(şəkillər və plan N.Alışov)**